**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

**Haradan:** SBRS

**İcra üçün:** MRTİ, MİƏİ

**Məlumat üçün:** MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərə, SVŞN, NAVŞ, NNAT, NDNC

**Sənədin №** SBRS/137/17 **Tarix:** 24/02/2017

**Sənəd necə göndərilməsi:** Elektron poçt

**Səhifələrin sayı:** 4 vərəq **Əlavə olunur:**

**Məhdudluğu qrifi:** Adi

**Təciliyi:** Çox təcili

**Vacibliyi:** Çox vacib

**Məsələyə dair:** "Ermənistanın 2017-ci ildə xarici siyasəti: təhdidlər və imkanlar" mövzusunda keçirilmiş konfransa dair

Azərbaycan Respublikasının
xarici işlər naziri
cənab Elmar Məmmədyarova

Hörmətli cənab Nazir,

Nəzərinizə çatdırırıq ki, cari ilin 22 fevral tarixində Brüsseldə fəaliyyət göstərən "Avropa Siyasət Mərkəzi" (EPC) tərəfindən "Ermənistanın 2017-ci ildə xarici siyasəti: təhdidlər və imkanlar" mövzusunda konfrans keçirilmişdir. Sözügedən konfransda Yerevan Regional Tədqiqatlar Mərkəzinin direktoru Riçard Qiroqisyan, Açıq Cəmiyyət Avropa Siyasəti İnstitutunun siyasi təhlilçisi Stanislav Sekreriu, "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Avropa tərəfdaşlığı proqramı" (EPNK) konsorsiumunun üzvü LİNKS qeyri-hökumət təşkilatının direktoru Dennis Sammut və Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı ölkələri ilə ikitərəfli münasibətlər şöbəsinin direktoru Dirk Şubel çıxış etmişdir. Çıxışlarda əsas məqamlar aşağıdakılar olmuşdur:

**Riçard Qiroqisyan:** Ermənistanın xarici siyasətində 3 xətt nəzərə çarpır. (1) Ermənistanla Rusiya arasındakı münasibətlər əvvəlki səviyyədə deyildir. Ermənistan hər zaman Rusiya ilə strateji tərəfdaşlığa xüsusi əhəmiyyət vermişdir. Rusiya isə hər zaman fikirləşib ki, Ermənistanla bağlı nə planı olsa, ikinci onu qeyd-şərtsiz qəbul edəcəkdir. 2016-cı ilin aprel ayında təmas xəttində baş vermiş hadisələr Ermənistanın Rusiya ilə münasibətlərinin yenidən qurulmasına təkan vermişdir. (2) Ermənistan qərblə Rusiya arasında "tarazlaşdırıcı" siyasət aparmağı yaxşı bacarır. Prezident Serj Sarqsyanın cari ilin fevral ayının sonlarında Brüsselə nəzərdə tutulan səfəri bunun əyani nümunəsidir. (3)

Ermənistan Cənubi Qafqaz regionunda ən sabit ölkədir. Bu da İranla əməkdaşlığın genişləndirilməsində Avropa İttifaqının nəzərində Ermənistanın strateji əhəmiyyətini artırır.

Hazırkı mərhələdə Ermənistanın həm daxili, həm də xarici siyasətində müəyyən narahatlıq doğuran risklər vardır. Cəbhə bölgəsində hərbi qarşıdurmanın təkrarlanması üçün münbit zəmin formalaşmışdır. Lakin əsas narahatlıq hadisənin özündən deyil, onu doğuran səbəblərdən qaynaqlanır. Bu gün tərəflər bir-biri ilə anlaşılmayan dildə danışırlar. Eyni zamanda, indiyədək münaqişənin sülh yolu ilə həllində irəliləyişin olmaması Azərbaycanın haqlı narazılığına səbəb olmuşdur (Azerbaijan has justified frustration). Danışıqların müsbət nəticələrə aparması üçün hərbi qarşıdurmanın olması labüddür. Lakin bu dəfəki hərbi qarşıdurma lokal çərçivədən kənara çıxaraq, İran və Türkiyəni də bu münaqişənin fiziki iştirakçısına çevirə bilər.

Rusiyanın Azərbaycanla münasibətləri Ermənistandan daha yüksək səviyyədədir. Rusiya Azərbaycana daha çox silah satır. Hər iki fakt Ermənistanda məyusluqla qarşılanır.

Ermənistanda keçiriləcək parlament seçkiləri ölkənin demokratik cəmiyyətə doğru irəliləməsində mühüm gedişat olacaqdır. Ermənistan seçkilərin şəffaf və demokratik keçməsi üçün Aİ-dən texniki yardım alsa da, bu seçkilərin demokratikliyinə zəmanət vermir. Xalqın seçkilərə inamı itmişdir. Lakin burada da əsas risklər seçkilərin nəticələrindən deyil, seçkilərdən sonrakı siyasi mühitdən qaynaqlanır. Ermənistan hakimiyyəti 2016-cı ilin iyul ayında "Sasna Tser" tamaşasını yenidən səhnəyə qoya bilər və bu aktı öz siyasi ambisiyaları üçün girova çevirə bilər.

Ermənistanda başqa yanlış yanaşma da mövcuddur. Bu gün Rusiyanın inşaat sektorunda fəhlə kimi işləyən Ermənistan vətəndaşlarının ailələrinə göndərdikləri pulun miqdarı azalır və xalq iqtisadi həyatda baş verən problemlərə görə yalnız Vladmir Putini qınayır, heç kəs bu problemlərin daxili mənbələrini araşdırmaq istəmir.

**Dirk Şubel:** Prezident Serj Sarqsyanın səfəri zamanı Ermənistanla Aİ arasında yeni ikitərəfli Çərçivə Sazişinin imzalanacağı ilə bağlı xəbərlər doğru deyil. Sazişin mətni Aİ üzv ölkələrinin rəsmi dillərinə tərcümə olunmalı, Aİ hüquqşünasları mətnlərin autentikliyini yoxlamalıdır və adətən bu proseslər ən azı 2-3 ay çəkir. 2013-cü ildə Ermənistanın Assosiasiya Sazişini imzalamaqdan son anda imtina etməsi Aİ-də şok effekti yaratmışdır. Hətta bu hadisə Aİ danışıqlar qrupunun üzvlərinə o qədər pis təsir etdi ki, Ermənistanla yeni Saziş layihəsi üzrə danışıqlar qrupunun heyətində köhnə üzvlərin əksəriyyəti iştirak etmək istəmədi. Ermənistan vizaların ləğvi üzrə dialoqa başlamaq istəyir. Lakin Aİ hələ buna hazır deyil və Ermənistandan məsələyə səbrlə yanaşmağı tövsiyə edir. Maraqlıdır ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının (EEU) digər üzvləri ilə müqayisədə EEU-dan daha az şikayət edir, halbuki Belarus və Qazaxıstan öz narazılıqlarını gizlətmirlər.

Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, Aİ tərəflər arasında müxtəlif səviyyələrdə təmasların tezləşdirilməsi marağındadır. *Status-quo* davamsızdır və yeni hərbi qarşıdurmanın baş verməsi arzuolunan deyildir.

**Stanislav Sekreriu:** Bu gün Aİ Ermənistanla əməkdaşlığının faydalarını erməni ictimaiyyətinə çatdırmaq üçün "strateji məlumatlandırma" işçi qrupunu yaratsa da, Rusiyanın Ermənistandakı təbliğatı daha öldürücüdür. Rusiya tərəfindən maliyyələşdirilən erməni QHT-ləri ictimai-siyasi dairələrdə davamlı olaraq belə təəssürat yayırlar ki, Aİ ilə yaxınlıq ölkəyə qeyri-sabitlik və hakimiyyət dəyişikliyi gətirəcəkdir. Həmçinin, deyirlər ki Aİ ABŞ-la eyni qitədə yerləşməsə də, onun regionda casusudur. Əks-təbliğatla yanaşı Rusiya həm də

şirnikləndirici addımlar da atır. Belə ki, o iddia edir ki, EEU öz inkişafı yolunda Avropa İttifaqının səhvlərini təkrarlamayacaqdır. Yəni o "vahid pul"-a keçid etməyəcəkdir. Bu yolla Rusiya EEU –nun daha qısa vaxt ərzində qüsursuz inkişafını izah etməyə çalışır.

Dağlıq Qarabağ münaqişəsində Rusiyanın manevrləri olduqca maraqlıdır. Belə ki, o Azərbaycanı daha çox silahlandırmaqla Ermənistanın gücünü zəiflətməyə çalışır, daha sonra Ermənistanın zəifliyini səbəb gətirərək bu ölkə üzərində hegemonluğunu artırır.

**Denis Sammut** (onun EPNK konsorsiumunun üzvü kimi fəaliyyətində müşahidə olunan narahatverici məqamlar Mərkəzə əlavə olaraq bildiriləcəkdir): Bu gün bir çoxları Ermənistanı Rusiyanın təsiri altında qalan ölkə kimi qınayır. Lakin Rusiya birdən-birə bu ölkədə güclü təsirə malik olmadı. Rusiya SSRİ dağılandan Ermənistana kök salmışdır. Vacib sual ondan ibarətdir ki, Rusiya ilə strateji tərəfdaşlıq Ermənistan üçün zərurətdir, yoxsa seçimdir. Bu sualı 3-lük: Ermənistan, "Dağlıq Qarabağ Respublikası" və erməni diasporu perspektivindən cavablandırmaq lazımdır. Ermənistan deyir ki, mənim ətrafım düşmən ölkələrlə çevrələnib, məni bu təhdiddən Rusiya qoruya bilər. Lakin Rusiya ilə strateji tərəfdaşlıq "Dağlıq Qarabağ Respublikası" və erməni diasporu üçün zərurətdən çox seçimdir.

Avropada Ermənistan nüfuz qazanmaq baxımından daha əlverişi imkanlara malikdir. İlk növbədə xristian həmrəyliyi, daha sonra Ermənistanın Türkiyə nifrəti, Türkiyədə baş verən hadisələrlə əlaqədar Avropada türklərə qarşı cəbhə alan siyasi partiyaların nüfuz qazanması Ermənistanı Avropaya daha da yaxınlaşdırır.

Konfransın sual-cavab hissəsində Gürcüstanın Aİ yanındakı Nümayəndəliyinin müşaviri 2013-cü ildə Ermənistanın Assosiasiya Sazişindən son anda imtina etməsinin səbəbləri ilə maraqlanmışdır. R.Qiroqisyan cavabında bildirmişdir ki, Sazişin imzalanmayacağı ilə bağlı bəyanatın S.Sarqsyan tərəfindən məhz Kremldə verilməsi o deməkdi ki, "Sarqyan Putin tərəfindən çağırılıb elə oradaca bəyanatın verilməsi üçün tənbeh edilmişdir". Almaniyanın Aİ yanında Daimi Nümayəndəliyinin əməkdaşı Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın daxili məsələsi olmaması haqqında açıqlamasına dair çıxışçıların mövqeyini soruşmuşdur. EEAS rəsmisi bu sualın Rusiya tərəfinə verilməsinin daha məqsədəuyğun olduğunu bildirmişdir. Denis Sammut Lavrovun bəyanatının səsləndiyi kimi qəbul edilməməsini, Rusiyalı nazirin cavabında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə digər iştirakçıların, o cümlədən ATƏT-in Minsk Qrupunun məşğul olması ilə bağlı ismarıcların verilmək istənildiyini bildirmişdir. Azərbaycan Səfirliyinin əməkdaşı Riçard Qiroqisyanın Azərbaycanın Rusiyadan külli miqdarda silah satın alması ilə bağlı şikayətinə toxunaraq qeyd etmişdir ki, Azərbaycanın bu məqsədlə xərclədiyi milyardlarla dollar vəsait daha nəcib məqsədlərə, o cümlədən işğal olunmuş ərazilərin reabilitasiyasına, infrastrukturların yaradılmasına, Ermənistanın da iştirak etdiyi birgə regional layihələrə sərf oluna bilərdi. Regiondakı prosesləri daim təhlil edən siyasi ekspert və sülh istəyən Yerevan sakini kimi Riçard Qiroqisyan görəsən bunun baş verməmə səbəblərini dərk edirmi?

Müqabil tərəf "Azərbaycan ərazilərinin işğal edildiyini, şəxsən özünün bu əraziləri işğal kimi qiymətləndirdiyini" vurğulamışdır. Bildirmişdir ki, silahlara xərclənən hər bir Azərbaycan manatı və Ermənistan dramı təhsilə, maarifləndirilməyə sərf oluna bilərdi. Erməni ekspert iddia etmişdir ki, "2016-cı ilin aprel qarşıdurması zamanı Azərbaycan ordusu bir sıra əraziləri nəzarətinə keçirdiyi vaxt Dağlıq Qarabağ ordusu bu məğlubiyyəti həzm edə

bilmədiyindən həmin əraziləri geri almaq üçün önə atılmağa çalışırdı. Buna baxmayaraq, Ermənistan ordusu buna getmədi. Bu özü-özlüyündə artıq nəyisə ifadə edir". Digər vacib amil isə ondan ibarətdir ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri Ermənistan üçün daim hədəfdə olmuşdur, lakin hərbi qarşıdurma zamanı Ermənistan tərəfi bu hədəflə bağlı heç bir tədbir görmədi. R.Qiroqisyanın sözlərinə görə regionun taleyi ilə bağlı onu ən çox narahat edən vəziyyət Donald Trampın ABŞ Prezidenti seçilməsi ilə əlaqəlidir. Belə ki, o qeyd etmişdir ki, D.Tramp bölgəni Rusiyanın nüfuz dairəsinə tərk edəcəkdir.

Məlumat üçün diqqətinizə təqdim olunur.

Hörmətlə,

**Səfir: Fuad İsgəndərov**___________________

İcraçı: Anar Şükürov (3158)